***Peşə təhsil pilləsində təhsil nəticələrinə əsaslanan diferensiallaşmış təqaüd sistemi.***

**1. Yeni qərarın əhəmiyyəti nədən ibarətdir?**

- Peşə təhsili pilləsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək;
- Peşə təhsilində təhsil nəticələrinə əsaslanan diferensiallaşmış təqaüd sistemini formalaşdırmaq;
- Ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq təhsil nəticələri yüksək olan tələbələrin də təqaüd almalarına imkan yaratmaq;
- Akademik göstəriciləri daha yaxşı olan abituriyentlərin peşə təhsilinə marağını artırmaq.

**2. Təqaüdlər nə qədər artırılıb?**

Son qərara qədər peşə təhsili müəssisələrində dövlət hesabına təhsil alan tələbələrə təhsil müddətində 50 manat məbləğində təqaüd ödənilirdi. Verilmiş son qərar ilə təhsil nəticələrinə uyğun olaraq daha yuxarı təqaüd məbləği müəyyənləşdirilmişdir:

- *“əlaçı” təqaüdü - 100 manat*
- *“həvəsləndirici” təqaüdü - 80 manat*
- *“adi” təqaüd - 66 manat.*

Hər bir halda dövlət tərəfindən tələbələrə ayrılan təqaüd məbləği artırılmışdır. Qərar tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədi daşıyır.

**3. Təqaüdlər hansı göstəricilər nəzərə alınmaqla veriləcək?**

Təqaüdlərin yarımil üzrə aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən müəyyənləşdirilir.
İlk və texniki peşə təhsili səviyyəsi üzrə aralıq qiymətləndirmə 5 ballıq qiymət şkalası (2,3,4,5) ilə və yüksək texniki peşə təhsili səviyyəsi üzrə isə çoxballı qiymət şkalası ((A,B,C,D,E,F) ilə ölçülür. Qiymətlərə (akademik göstəricilərə) əsasən təqaüd təyin olunması aşağıdakı kimi müəyyənləşdirilmişdir.

**<u>İlk və texniki peşə təhsili üzrə:</u>**

- Aralıq qiymətləndirmə üzrə qiymətləri “5” olan tələbələrə – 100 manat • Aralıq qiymətləndirmə üzrə qiymətləri “4” və “5” olan tələbələrə – 80 manat
- Aralıq qiymətləndirmə üzrə qiymətləri “3” - “5” olan tələbələrə – 66 manat.

**<u>Yüksək texniki peşə təhsili üzrə:</u>**

- Aralıq qiymətləndirmə üzrə qiymətləri 91 – 100 bal olan tələbələrə – 100 manat
- Aralıq qiymətləndirmə üzrə qiymətləri 71 – 100 bal olan tələbələrə – 80 manat • Aralıq qiymətləndirmə üzrə qiymətləri 51 – 100 bal olan tələbələrə – 66 manat.

**4. İlk yarımil üzrə təqaüdlər necə müəyyənləşdiriləcək?**

Peşə təhsili pilləsinin ***<u>ilk və texniki peşə təhsili səviyyələri</u>*** üzrə attestat qiymətlərinin orta göstəricisi “4,5” və daha çox olduqda, birinci tədris ilinin birinci yarımilində “**əlaçı**”, digər halda isə “**adi**” təqaüd verilir.

***<u>Yüksək texniki peşə təhsili səviyyəsi</u>*** üzrə ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında topladıqları qiymətlərin orta göstəricisi <u>“4,5” və daha çox</u> <u>olduqda,</u> DİM tərəfindən keçirilən orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən peşə təhsili müəssisələrinə qəbul olunan tələbələrə imtahan verilən fənlər üzrə müəyyən edilmiş <u>maksimal balın 85 faizini və daha çoxunu topladıqda</u> birinci tədris ilinin birinci yarımilində ***“əlaçı”,*** digərlərində isə ***“adi”*** təqaüd verilir.

**5. Digər yarımil və tədris illəri üzrə təqaüd müəyyənləşdirilməsi necə aparılır?**

İkinci yarımil və digər tədris illərində təqaüdlər aralıq qiymətləndirmə (yarımil) nəticələrinə görə müəyyənləşdirilir.

- **<u>İlk və texniki peşə təhsili səviyyələri üzrə</u>**: “əlaçı” təqaüdü modullar üzrə aralıq qiymətləndirmə nəticəsi “5” olanlara, “həvəsləndirici” təqaüdü nəticələri “4” və “5” olanlara (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi 91 baldan yuxarı olmalıdır) və “adi” təqaüd qiymənləri 51-100 bal olan tələbələrə verilir. Aralıq qiymətləndirmənin yekun nəticələrinə görə “3”-dən aşağı qiymət almış tələbələrə təqaüdün verilməsi dayandırılır və yalnız akademik borclar ləğv edilən gündən yenidən bərpa olunur.
- **<u>Yüksək texniki peşə təhsili səviyyəsi üzrə:</u>** “əlaçı” təqaüdü modullar üzrə aralıq qiymətləndirmə nəticəsi 91-100 bal olan tələbələr, “həvəsləndirici” təqaüdü nəticələri 71-100 bal olan tələbələrə (bu halda ən azı bir moduldan (fəndən) akademik göstəricisi “5” olmalıdır) və “adi” təqaüd qiymətləri “3”, “4” və “5” olanlara verilir. Aralıq qiymətləndirmənin yekun nəticələrinə görə 50 baldan

aşağı qiymət almış tələbələrə təqaüdün verilməsi dayandırılır və yalnız akademik borclar ləğv edilən gündən yenidən bərpa olunur.

**6. Təqaüd sayı necə müəyyənləşdirilir?**

Təqaüdlərin sayı dövlət sifarişi ilə (ödənişsiz) təhsil alan tələbələrin sayına əsasən müəyyənləşir. Dövlət sifarişi ilə təhsil alan tələbələrin sayı və ixtisasları ildə bir dəfə Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**7. Ödənişli əsaslar ilə təhsil alanlar nə zamandan etibarən təqaüd ala bilər və bu proses necə tənzimlənir?**

Təhsilin ilk yarımili üzrə təqaüdlər yalnız dövlət hesabına təhsil alan tələbələrə verilir.

Birinci yarımilin sonu aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən ən yüksək baldan başlayan sıralamaya uyğun olaraq növbəti yarımildə təqaüd alacaq tələbələrin siyahısı

müəyyən edilir. Bu zaman sıralama həmin ixtisas üzrə təhsilalan bütün tələbələrə şamil edilir və qiymətləri (akademik göstəriciləri) daha yaxşı olan və ödənişli təhsil alan tələbələr də təqaüd ala bilərlər.

Məsələn, peşə təhsili müəssisəsində “Bərbər” ixtisası üzrə dövlət hesabına 20 nəfər və ödənişli olaraq 20 nəfər təhsil almaqdadır. Belə olan halda həmin ixtisas üzrə təqaüd alacaq tələbə sayı 20 nəfər olacaqdır. Tədris ilinin 1-ci yarısında dövlət hesabına təhsil alan tələbələr, attestat və ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış və orta ixtisasa qəbul imtahanı nəticələrinə uyğun müvafiq dərəcəli təqaüdlər alacaqdır. Növbəti yarım illərdə isə təqaüdlərin verilməsi tələbələrin dövlət və ödənişli əsaslarla təhsil almalarına baxılmadan, aralıq qiymətləndirmənin yekun nəticələrinə əsasən ən yüksəkdən başlayan sıralamaya uyğun olaraq müəyyən ediləcəkdir. Yəni ödənişsiz əsaslarla təhsil alan tələbə kimi ödənişli təhsil alan tələbə də təqaüd ala biləcək, lakin bu həmin tələbənin imtahan nəticələrinə bağlı olacaq.

**8. Müvəffəq qiymət alan tələbələrin sayı təqaüdlərin sayından çox olduğu təqdirdə təqaüd alacaq olan tələbələr necə müəyyən edilir?**

Hər bir tədris ili üçün ixtisas üzrə təqaüd almaq hüququ olan tələbələrin siyahısında sıralamada sonuncu yerə bir neçə iddiaçı olduğu halda, birinci tədris ilinin ikinci yarımilində ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında əldə etdiyi nəticə və ya orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanından topladığı bal, sonrakı yarımillərdə isə əvvəlki yarımildəki aralıq qiymətləndirmənin nəticəsi yüksək olan tələbəyə üstünlük verilir.

**9. Bir ixtisas üzrə təqaüdlərin müəyyən olunmuş sayı müvəffəq qiymət alanların sayından çox olduqda qalan təqüdlər necə təyin edilir?**

Qalan təqaüd yerləri təhsil müəssisəsində pedaqoji şuranın qərarı ilə digər ixtisaslar üzrə təhsil alan və həmin yarımildə aralıq qiymətləndirmə üzrə yekun nəticəsi yüksək olan tələbələrə növbəti yarımilədək verilir.

**10. Təkrar təhsil alan tələbələrə təqaüd verilirmi?**

Təkrar olaraq eyni peşə təhsili səviyyəsində təhsil alan tələbələrə dövlət hesabına təqaüd verilmir.

**11. Hansı hallarda təqaüdün verilməsi dayandırılır?**

Aralıq qiymətləndirmənin yekun nəticələrinə görə çoxballı sistem üzrə 50 baldan və ya 5 ballıq qiymət şkalası üzrə "3"-dən aşağı qiymət almış peşə təhsili müəssisələrinin tələbələrinə təqaüdün verilməsi dayandırılır. Akademik borclar ləğv edilən gündən təqaüdün verilməsi bərpa olunur.

**12. Akademik borcu yaranan tələblərə təqaüd verilirmi?**

Xəstəliyə və digər üzrlü səbəblərə görə aralıq qiymətləndirmədə iştirak etməyən tələbələrə akademik borcların ləğvi üçün ayrılan müddətin sonunadək təqaüdün verilməsi davam etdirilir.

Akademik borca görə təkrar kursda saxlanılan və təhsillərini müvəqqəti olaraq dayandıran tələbələrə təkrar təhsil ili dövründə təqaüd ödənilmir.

**13. Əvvəllər ali təhsil almış və hazırda peşə təhsilində təhsil alan tələbələr də təqaüd alacaqlar?**

Peşə təhsili haqqında qanuna əsasən hər kəs bir dəfə dövlət hesabına və istədiyi qədər ödənişli əsaslar ilə təhsil ala bilər. Əvvəlki təhsil səviyyəsindən asılı olmayaraq hər kəs müvafiq qaydalara uyğun təqaüd almaq hüququndan istifadə edə bilər.

**14. Peşə təhsilində yarımil və aralıq qiymətləndirmə nə deməkdir?**

Peşə təhsili üzrə təhsil ili 15 sentyabr tarixindən başlayır və təhsil proqramına əsasən tamamlanır. Təhsil ili 2 yarımildən ibarətdir. Hər yarımilin sonunda yarım il ərzində tədris olunan fənn və modullar üzrə qiymətləndirmə aparılır. Aralıq qiymətləndirmə təhsil proqramında (kurikulumda) hər bir modul və onun tərkib hissəsi olan təlim nəticələri üzrə təhsilalanların əldə etdiyi bilik, bacarıq və səriştələrin müəyyən olunması məqsədilə aparılır. İlk və texniki peşə təhsili üzrə aralıq qiymətləndirmə nəticələri 5 ballıq qiymət şkalası (2,3,4,5) ilə, çoxballı qiymət şkalası (0-100 bal) ilə ölçülür.